# NİZAMİ XUDİYEV – 70



Əməkdar elm xadimi, professor Nizami Manaf oğlu Xudiyevin yaşının üstünə yaş gəlir, 70 yaşı tamam olur. Nizami müəllim maarifimizin tarixində mühüm rolu olan Azərbaycan Dövlət Pedaqoji Universitetinin yetirməsidir. O,1966-cı ildə bu ali təhsil ocağının Filologiya fakültəsinə daxil olmuşdur. Təhsil illərində həm dərs əlaçısı kimi müəllimlərinin sevimlisi olmuş, Nizami Gəncəvi təqaüdü ilə oxumuş, həm də universitetin ictimai təşkilatlarında öz qabiliyyəti ilə fərqlənmişdir. O, hələ tələbə vaxtı ümidveren gənc kadr kimi ustadı, əziz müəllimi, görkəmli elm xadimi professor Ə.Dəmirçizadənin diqqətini cəlb etmişdi. Pedaqoji universiteti fərqlənmə diplomu ilə başa vuran Nizami müəllim elmi şuranın qərarı ilə universitetdə saxlanmış, Ə.Dəmirçizadənin rəhbər olduğu Azərbaycan dilçiliyi kafedrasına müəllim təyin edilmişdir. Bildiyimiz kimi, Əbdüləzəl müəllim görkəmli dilçi-türkoloq Bəkir Çobanzadənin Azərbaycanda yetirdiyi üç-dörd tanınmış alimdən biri olmuşdur. Bəkir Çobanzadənin bu yetirməsi ADPU-da dilçilik məktəbi yaratmışdır. Bu məktəbin yetirmələri arasında Afad Qurbanov, Ağamməd Abdullayev, Həsən Balıyev və başqalarının adları elmi ictimaiyyətə yaxşı tanışdır. Ə.Dəmirçizadə Azərbaycan dilçiliyində dil tarixi, xüsusilə ədəbi dil məsələlərinin öyrənilməsində özünəməxsus yer tutur. Onun qələmindən çıxan "Azərbaycan ədəbi dili tarixi" dərslik-monoqrafiyası bu sahə üzrə Azərbaycan dilçiliyi tarixində ilk mükəmməl mənbə, qiymətli tədqiqat əsəridir.

Bu tanınmış alim dilçiliyimizdə daha çox öyrənilməyə ehtiyac olan ədəbi dil problemi ilə məşğul olur. Təxminən əlli ilə yaxındır elm və maarifimizin inkişafında yorulmadan külüng vuran Nizami müəllim bu gün öz müəlliminin estafetini layiqli şəkildə davam etdirir, ADPU-nun "Azərbaycan dilçiliyi" kafedrasına başçılıq edir, həmin fənni tədris edir, gənc kadrların yetişməsində əzmlə çalışır. Nizami müəllimin filologiya üzrə fəlsəfə doktoru dissertasiyası "Abdulla Şaiqin dili" (1978) adlanırdı. Məlumdur ki, yazıçı və dil problemi ədəbi dil tariximizin mühüm bir sahəsini təşkil edir. Bu baxımdan Nizami müəllimin bu dissertasiyası Azərbaycan dilçiliyi tarixinin, ədəbi dil tarixinin inkişafı üçün layiqli bir xidmətdir. N.Xudiyev bundan sonra çox sevdiyi müəllimi Dəmirçizadənin başladığı, amma ömür vəfa etmədiyi üçün bitirə bilmədiyi (Ə.Dəmirçizadənin "Azərbaycan ədəbi dili tarixi" dərsliyi ancaq ölümündən sonra işıq üzü gördü) dil tarixi və ədəbi dil tarixi məsələlərinin tədqiqi ilə daha dərindən məşğul olmağa başladı.

Nizami müəllim 1990-cı ildə "Azərbaycan ədəbi dili tarixi" mövzusunda doktorluq dissertasiyasını uğurlu şəkildə müdafiə etdi. Bu tədqiqat işi 1995-ci ildə kitab şəklində nəşr olundu. Sonralar ehtiyaca görə onun yeni nəşrləri meydana gəldi. Elə Nizami müəllimin 14 cilddən ibarət olan

“Seçilmiş əsərləri”nin birinci cildini də (2012) bu monumental tədqiqat işi təşkil edir.

Professor Nizami Xudiyev peşəsini, sənətini sevən, müəllimliyi ilə fəxr edən pedaqoqdur. Təsadüfi deyildir ki, o, indiki ADPU-da 50 ilə yaxındır çalışır və 1994-1996-cı ildə bu qədim təhsil ocağının rektoru olmuşdur. Bu gün də həmin ali məktəbdə Azərbaycan dilçiliyi kafedrasına başçılıq edir, dərs deyir, öz sənətini gənclərə sevdirir.

Yaradıcı, zəhmətkeş pedaqoq, elm adamı olan Nizami Xudiyev 1995-ci ildə Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir. Nizami müəllimin millət vəkilliyi 3 çağırış (I,II,III) dalbadal davam etmişdir. Nizami müəllim 1996-cı ildə Azərbaycan radioteleviziya şirkətinin sədri təyin olunmuş, bu vəzifədə 10 ilə yaxın çalışmışdır. Televiziyadakı iş təcrübəsi və müşahidələr alimə televiziya dili haqqında ümumiləşdirici əsər yazmaq üçün xeyli material vermişdir. Müəllif bu materiallar üzərində uzun illər araşdırma işi apararaq dilçiliyimiz üçün çox maraqlı bir monoqrafik tədqiqat əsəri ərsəyə gətirmişdir. Həmin kitab belə adlanır: “Radio, televiziya və ədəbi dil”. Müəllifin 650 səhifəlik bu əsəri “Seçilmiş əsərləri”nin III cildində verilmişdir. Bu cildin təxminən 300 səhifəsində sırf radio və televizayada dil probleminin nəzəri və təcrübi məsələlərindən bəhs edilir.

Məhz bu baxımdam müəllifin “Radio, televiziya və ədəbi dil” əsəri kütləvi informasiya vasitələrinin ən inkişaf etmiş qolu olan teleradio jurnalistikasının, ekran və efirin dil məsələlərinin öyrənilməsi baxımından elm və mədəniyyətimiz üçün dəyərli bir töhfədir.

Nizami Xudiyev orta məktəblərin 3, 4, 5, 10, 11-ci sinifləri üçün “Azərbaycan dili”, 2-ci siniflər üçün “Oxu”, ixtisaslaşdırılmış məktəblər üçün “Azərbaycan dili” və “Ana dili” dərsliklərinin müəlliflərindəndir. Elmi-kütləvi nəşrlərdə, informasiya vasitələrində, müxtəlif jurnallarda 400-dən artıq elmi məqalə dərc etdirmişdir. Gərgin elmi araşdırmaların məhsulu olan, yuxarıda qeyd etdiyimiz “Azərbaycan ədəbi dilinin təşəkkülü”, “Azərbaycan ədəbi dili tarixi”, “Azərbaycan ədəbi dilinin sovet dövrü”, “Heydər Əliyev və Azərbaycan dili”, “Xalq və dövlət naminə”, “Yazıçı dili və üslubu”, “Radio, televiziya və ədəbi dil”, “Qədim türk yazılı abidələrinin dili”, “Xalqın tarixi haqqı: dilimiz, varlığımız” kimi əsərləri, eləcə də “Zamanın axarı ilə” (I,II), “Tərcümə ədəbiyyatı və ədəbi dilimiz”, “Şəxsiyyət və zaman”, “Uğurlu yolun layiqli davamçısı”, “YAP dünənin, bu günün, sabahın partiyasıdır”, “Cənubi Azərbaycanda ədəbi dilimizin dünəni və bu günü”, “Ömürdən səhifələr” və digər fundamental əsərləri Nizami Xudiyevin Azərbaycan elminə sanballı və əvəzolunmaz töhfələridir.

Onun bir sıra kitab və məqalələri xarici ölkələrdə (İran, Türkiyə, Rusiya, Almaniya, İraq, İsveçrə, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan və s.) nəşr edilmişdir. Azərbaycan Respublikasının Əməkdar elm xadimi Nizami Xudiyev görkəmli türkoloq kimi respublikamızda və dünyanın bir çox ölkələrində, şəhərlərində, o cümlədən Moskva, Nalçik, Bişkek, Ufa, Aşqabad, Daşkənd, Almatı, Ankara, İstanbul, Əskişəhər, İzmir, Adana, Konya və başqa şəhərlərdə keçirilən nüfuzlu türkoloji tədbirlərin – qurultay, beynəlxalq simpozium və elmi konfransların nümayəndəsi olmuş, bu mötəbər toplantılarda elmi məruzələrlə çıxış etmişdir.

Çalışdığı illərdə “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətində apardığı islahatlar, paralel olaraq elmdə, siyasətdə qazandığı uğurlar, Milli Məclisdəki fəaliyyəti, nüfuzlu beynəlxalq təşkilatlarda vətənimizi ləyaqətlə təmsil etməsi Nizmi Xudiyevin hərtərəfli, çoxşaxəli fəaliyyətindən xəbər verir. O, Milli Elmlər Akademiyası və Bakı Dövlət Universiteti nəzdində alimlik dərəcəsi almaq üçün filologiya sahəsində dissertasiyaların müdafiəsini keçirən Təhsil Nazirliyi və Milli Elmlər Akademiyasının birləşmiş ixtisaslaşmış şurasının (1997), Azərbaycan Milli

Elmlər Akademiyası Nəsimi adına dilçilik institutunun nəzdində filologiya üzrə elmlər doktoru və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təsdiq olunmuş dissertasiyaların müdafiəsini keçirən dissertasiya şurasının, həmçinin Azərbaycan, Ziyalılar Cəmiyyəti idarə Heyətinin (1998), Jurnalistlər (1998) və Yazıçılar Birliyinin (1999) üzvüdür.

Nizami Xudiyevin elmi-pedaqoji fəaliyyəti bir sıra yüksək mükafatlara layiq görülmüşdür. O, Ali Sovetin fəxri fərmanı (1981), "Araz" (1992), "Nailiyyət" (1995), "Akademik Y.Məmmədəliyev adına medal və mükafat" (1996), "İnam" (1997), "Vətən" (1998), "Qızıl Qələm" (2001), "Abdulla Şaiq" (2001), "Həsən bəy Zərdabi" (2004), Azərbaycan Respublikası "Vektor" Beynəlxalq Elm Mərkəzinin "İlin ziyalısı" beynəlxalq diplomu" (2004) və s. ilə təltif olunmuşdur.

Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi Nizami Xudiyev beynəlxalq elmi ictimaiyyat arasında da böyük nüfuza malikdir. O, Lütfüzadə adına Amerika Beynəlxalq Müasir Elmlər Akademiyasının və Nyu-York Elmlər Akademiyasının həqiqi üzvüdür. İngiltərənin Kembric Beynəlxalq Bioqrafiya Azərbaycan alimini yüksək elmi nailiyyətlərinə və rəhbərlik qabiliyyətinə görə XX və XXI əsrlərin tanınmış 2 min ziyalısı arasından seçərək 2001-ci il üçün "İlin beynəlxalq ziyalısı" elan etmiş və onu "Qızıl medal"a layiq görmüşdür. Eyni zamanda, Kembric Beynəlxalq Bioqrafiya İnstitutu professor Nizami Xudiyevi 2002-ci ildə "XXI əsrin intellektualı" seçərək onu xüsusi medal və diplomla təltif etmişdir. Onun adı "XXI əsrin ən görkəmli ziyalıları" (ilk nəşr) kitabına daxil edilmişdir. Nizami Xudiyev elmi uğurlarına və bu sahədəki səmərəli fəaliyyətinə görə Kembric Bioqrafiya İnstitutunun Baş Direktorunun müavini vəzifəsinə seçilmişdir. Görkəmli alim 2002-ci ildə Amerika Birləşmiş Ştatları Bioqrafiya İnstitutunun üzvü seçilmişdir.

Nizami Xudiyev 2004-cü ildə Ankara şəhərində keçirilən Türk dili qurultayında "Türk dilinə xidmət" ödülü ilə mükafatlandırılmışdır. Həmçinin Amerikanın Dünya Ədəbiyyatı Akademiyasının "Humanitar və fəlsəfə elmləri üzrə Sokrat sədri" (2004) seçilmiş və Kembric Beynəlxalq Bioqrafiya İnstitutunun "Beynəlxalq Şərəf Ordeni" (2004) ilə təltif olunmuşdur. Nizami Xudiyev elmi və ictimai fəaliyyətlərinə görə Amerika Bioqrafiya İnstitutu tərəfindən "2005-ci ilin adamı" seçilmiş, "İlin adamı" xatirə medalı ilə təltif edilmişdir.

N.M.Xudiyev Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında fəal iştirakına görə 2009-cu ildə "Şöhrət" ordeni, 2012-ci ildə "Azərbaycan Respublikası Qabaqcıl təhsil işçisi" döş nişanı, 2013-cü ildə "Ən yaxşı vətənpərvər tədqiqatçı alim" qızıl medalı ilə təltif edilmişdir. Təsadüfi deyildir ki, bu görkəmli pedaqoq-alim ölkə prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür (04 aprel 2019-cu il).

Ümumiyyətlə, müstəqil Azərbaycanın elmi və pedaqoji fikrinin, dövlətçiliyinin inkişafında əməkdar elm xadimi, Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, ADPU-nun "Azərbaycan dilçiliyi" kafedrasının müdiri, professor Nizami Xudiyevin də öz payı vardır.

Görkəmli pedaqoq-alim və ictimai xadim Nizami Xudiyevi 70 yaşı münasibətlə dostu, həmkarları, ümumiyyətlə Azərbaycan ziyalıları adından təbrik edir, ona can sağlığı, pedaqoji və elmi fəaliyyətində böyük yaradıcılıq uğurları arzulayırıq.

*Əbülfəz Quliyev*
*Nəbi Əsgərov*